# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2016-cı ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 3-cü səhifədə).

Rayonun yerli gəlirləri 2016-cı ilin I rübündə 2601,1 min manat proqnoza qarşı 2652 min manat (102 %) və ya 50,9 min manat çox, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait 1720,6 min manat dürüstləşdirilmiş proqnoza qarşı 2288 min manat (133 %) və ya 567,4 min manat çox, yerli xərcləri dürüstləşdirilmiş 4321,7 min manat proqnoza qarşı 4497,5 min manat (104 %) və ya 175,8 min manat çox icra olunmuşdur.

Rayonun yerli xərcləri təhsil xərcləri üzrə 194,5 min manat , səhiyyə xərcləri üzrə 10,2 min manat, kommunal təsərrüfat xərcləri üzrə 12,4 min manat artıq, icra hakimiyyəti orqanlarının saxlanması xərcləri üzrə 31,9 min manat, mədəniyyət xərcləri üzrə 0,6 min manat, mənzil təsərrüfatı xərcləri üzrə 0,4 min manat, bədən tərbiyəsi və gənclər siyasəti tədbirləri xərcləri üzrə 3,5 min manat və digər xərc maddələri üzrə 4,9 min manat az olmaqla, ümumilikdə rüb ərzində 175,8 min manat təyinatdan az icra olunmuşdur.

Yerli xərclərin 175,8 min manat təyinatdan az icra olunmasının əsas səbəbi bəzi xərc maddələri üzrə (binaların və mənzil fondunun cari və əsaslı təmiri, avadanlıq və invertarların alınması, yolların əsaslı təmiri və sair xərclər) faktiki icranın tam yerinə yetirilməməsi olmuşdur. Əmək haqqı və ona üstəlik xərc maddələrində artıq icranın səbəbi isə 2016-cı ilin fevral ayının 1-i tarixindən Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən büdcədən maliyələşən təşkilatların işçilərinin əmək haqlarının orta hesabla 10 faiz artırılması və həmin vəsaitin növbəti ayların dotasiyası hesabına ödənilməsi olmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 4-ü - əlavə dəyər vergisi, sadələşdirilmiş vergi, dövlət rüsumu və dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxil olmalar üzrə proqnoz tapşırıqlar kəsrlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 363,2 min manat az vəsait daxil olmuşdur. Digər növ gəlirlər üzrə 414,1 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 50,9 min manat çox yerinə yetirilmişdir.

Yerli büdcənin hesabında 01 aprel 2016-cı il tarixə 442,5 min manat vəsait qalığı yaranmışdır.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən əsasən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Rüb ərzində bütün növ istehlakçı qruplar tərəfindən 30.409,1 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 1.824,5 min manata qarşı 1.513,1 min manat vəsait toplanaraq illik yığım planı 82,9 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 74,7 %, dövlət müəssisələri üzrə 80,9 %, ticarət xidməti üzrə 90 %, özəl sənaye üzrə 72,6 %, əhali qrupu üzrə isə 82 % olmuşdur. Rüb ərzində 10/6 kV-luq hava xəttinin 4,3 km məsafəsində 78,8 min manat dəyərində əsaslı və cari təmir işləri görülmüşdür. 10 kV-luq Bum, Vəndam, Zarağan, Pirəli, Qaradeyin, Hacıalılı, Dizaxlı, Zalam, şəhər 3-cü və 1-ci hava xətlərində KD-10,5, KD-9,5 tipli dəmir-beton dayaqllar basdırılmış, 26595 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 10/0,4 kV-luq transformator yarımstansiyasının 2 ədədində təhlükəsizlik texnikası qaydalarının bərpası üçün 250 A-lik ayırıcı quraşdırılmışdır. 36 ədəd transformator yarımstansiyasının mühafizə zonası alaq otları və kollardan təmizlənmiş, 8 ədəd transformator yarımstansiyasının 0,4 kV-luq çıxışında zədələnmiş kabellər yenisi ilə əvəz edilmişdir. 12 km məsafədə 0,4 kV elektrik verilişi hava xətlərinin mühafizə zonasında ağac kütlədən təmizləmə işləri aparılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 16.148,8 min kub/metr təbii qaz istehlak edilmiş, 1.614,9 min manata qarşı 1.238,3 min manat vəsait toplanaraq ümumi yığım məbləğinə 76,7 % əməl olunmuşdur. Həmin göstərici əhali sektoru üzrə 78,8 %, büdcə təşkilatları üzrə 47,8 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə isə 86,8 % təşkil etmişdir. Rüb ərzində 611 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərinin ümumi sayı 12.746-ya çatdırılmışdır. Bum qəsəbəsində 1264, Qəmərvan kəndində isə 337 evə yeni qaz xətləri çəkilmiş, sayğaclar quraşdırılaraq əhaliyə mavi yanacaq verilişinə başlanılmışdır. Tüntül kəndində təbii qazdan istifadə edən 360 abonent, Yengicə kəndində isə 126 abonent kodlaşdırılmışdır. Rayon ərazisində 4 ədəd ŞQTM tipli yeni təzyiq tənzimləyicisi quraşdırılmışdır. 3 ayda 56 ədəd istismar müddəti bitmiş sayğac dəyişdirilmişdir.

Qəbələ Sukanal İdarəsi tərəfindən "Qaraçay" və "Duruca" su mənbələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami Gəncəvi küçəsində təmir-bərpa işləri aparılaraq, su axıntılarının qarşısı alınmışdır. İsmət Qayıbov, Vahid Qəhrəmanov, İmadəddin Nəsimi, Nizami Gəncəvi və Muxtar Abduyev küçələrində yerləşən yaşayış massivində müxtəlif diametrli plastik və dəmir borular dəyişdirilərək 420 pm su xətləri təmir olunmuşdur. Eləcə də Zarağan kəndində məcburi köçkünlər üçün tikilən şəhərcikdə 1 ədəd su nasosu dəyişdirilmiş, Muxtar Abduyev küçəsində 52 metr kanalizasiya xətti təmir edilmişdir. Şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması istiqamətində Dünya Bankının maliyyə dəstəyi ilə ayrı-ayrı küçələrdə 6130 pm su, 10174 pm kanalizasiya xətləri çəkilmişdir. Su xətlərinə 149, kanalizasiya xətlərinə 47 ədəd ev birləşmələri verilmiş, 188 ədəd baxıcı quyu quraşdırılmışdır. Rüb ərzində 62,9 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 85 %-i yığılaraq müəssisənin hesabına keçirilmişdir. Bu göstərici əhali sektoru üzrə 83 %, büdcə təşkilatları üzrə 92 %, kommersiya və digər təşkilatlar üzrə 82 % təşkil etmişdir.

"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2014-cü il tarixli 961 nömrəli Sərəncamına əsasən Mirzəbəyli, Cığatelli, Seyidqışlaq, Məmmədağalı, Bəyli, Bunud və Həmzəli kəndlərində subartezian quyuları qazılaraq əhalinin istifadəsinə verilmişdir.

2016-cı ilin birinci rübü ərzində Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı tərəfindən şəhər təsərrüfatına 67,5 min manat, ictimai yaşayış binalarına 11,4 min manat, idarə və müəssisələrə 14,1 min manat, kommersiya obyektlərinə 2,4 min manat və fərdi yaşayış evlərinə 1,5 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərilmişdir.

İlin ötən dövründə Qəbələ rayon 11 saylı Yol İstismar İdarəsi tərəfindən 219,8 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Rüb ərzində Qəbələ Telekommunikasiya Qovşağı 285 min manat tarif gəliri proqnozuna qarşı 286,4 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 100,5 % əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər, 30 kənd EATS-nin montaj tutumu 11980 nömrəyə çatdırılmışdır. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. İlin əvvəlindən yaşayış məntəqələrində 456 abonentə telefon xətti çəkilmiş, 427 nömrə internetə qoşulmuşdur. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 3966 nəfər təşkil edir. Vəndam qəsəbə EATS-dən "Duyma" istirahət zonasına 48 nömrəlik, Kürd kənd EATS-dən Savalan kəndinə 48 nömrəlik avadanlıq montaj edilmişdir.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 2016-cı ilin birinci rübündə 63 min manata qarşı 65,4 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 103,8 % yerinə yetirmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 3 min manat artım olmuşdur.

Qəbələ Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində hazırda 3806 hərəkətdə olan sosial müavinət və təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 306,7 min manat təşkil edir. Rüb ərzində 51 nəfər 18 yaşadək əlil uşağa, 81 nəfər I, II və III qrup əlillərə, 7 ailənin 35 uşağına ailə başçısını itirməyə, 11 nəfərə qocalığa görə müavinət təyinatı aparılmışdır. Bundan başqa 348 ailənin 375 uşağına anadan olmasına görə, 6 ailəyə isə vəfat edənlərin dəfn edilməsi üçün birdəfəlik müavinət ödənmişdir. 318 ailəyə ünvanlı sosial yardım təyin olunmuş, həmin ailələrdən 1 yaşadək uşağı olan 28 ailənin 28 uşağına müavinət təyin edilmişdir. Hazırda mərkəzdə 1103 hərəkətdə olan ünvanlı sosial yardım işi vardır.

Dövlət Sosial Müdafiə Fondu Qəbələ Rayon Şöbəsi tərəfindən 2016-cı ilin birinci rübündə gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 1.678,9 min manata qarşı 1.608,4 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 95,8 % əməl olunmuşdur. Rüb ərzində 293 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 10-u hüquqi, 280-i fiziki şəxs, 3-ü isə pay torpaq mülkiyyətçisi olmuşdur. 1 aprel 2016-cı il vəziyyətinə şöbədə 11564 pensiya işi üzrə 11858 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 5602,2 min manat pensiya, 122 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmişdir. Orta aylıq pensiyanın məbləği 1920,6 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiyanın məbləği 166 manat 08 qəpik təşkil etmişdir.

2016-cı ilin ötən dövrü ərzində rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təmin edilməsi üçün suvarma kanalları 111 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə isə çay məcraları 161 min kub/metr daş və qumdan təmizlənmişdir. 207 kub/metr daş beton bənd cari və əsaslı təmir edilmişdir.

Rayonumuzda 2016-cı ilin birinci rübündə tikinti-abadlıq işləri sahəsində də xeyli işlər görülmüşdür. YAP rayon təşkilatının inzibati binası, xizəkçilik mərkəzi, "Tufandağ" oteli və Qəbələ istirahət parkı obyektlərində tikinti işləri başa çatdırılmış, 100 yerlik şəhər uşaq bağçasının, "Asan Xidmət"in və rayon kənd təsərrüfatı idarəsinin inzibati binalarının tikintilərində isə son tamamlama işləri aparılır.

Hazırda Qəbələ Futbol Akademiyası və stadionlar kompleksi, Dəmiraparan çayı üzərində 10 aşırımlı 324 paqonmetrlik dəmir-beton körpü, "Aquapark" istirahət kompleksi, "Qolf klub" kompleksi, "Tufandağ" dağ-xizək yayqış istirahət kompleksi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin inzibati binası, "Qrand-Siti" otelinin binası, rayon məhkəməsinin və rayon prokurorluğunun inzibati binaları, "Raftinq Mərkəzi", Nohur gölü ərazisində otellər kompleksi, Gömrük Akademiyası, atçılıq idman mərkəzi, Qəbələ Peşə Məktəbi, Qəbələ-Qəmərvan yolunda 1 aşırımlı 36 paqonmetrlik dəmir-beton körpü, qolf villalar, Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidən qurulması layihəsi çərçivəsində içməli su və kanalizasiya şəbəkələrinin tikintisi və Nohurqışlaq-Tüntül-Yengicə avtomobil yolunun əsaslı təmiri obyektlərində tikinti quraşdırma işləri davam etdirilir.

(Ardı 5-ci səhifədə).